**“Bakı Fond Birjası” Qapalı Səhmdar Cəmiyyəti**

**ƏMR № 21**

**Bakı şəhəri** **06.04.2021-ci il**

“Bakı Fond Birjası” QSC-nin (BFB) Müşahidə Şurasının 18.03.2021-ci il tarixli qərarını (Protokol №01) rəhbər tutaraq, Mərkəzi Bankın 31.03.2021-ci il tarixli 22-00345-2021 №-li cavab məktubunu nəzərə alaraq

**Əmr edirəm**

1. Qiymətli kağızların kütləvi təklif üsulu ilə yerləşdirilməsi zamanı anderraytinq xidməti göstərən investisiya şirkət(lər)inə BFB tərəfindən aşağıdakı şərtlər əsasında pul mükafatı verilsin:

1.1. Qiymətli kağızlar korporativ emitentlər (İKZF istisna olmaqla) tərəfindən emissiya olunmaqla fond birjasında kütləvi təklif üsulu ilə yerləşdirildikdə aşağıdakı məbləğdə mükafat ödənilsin:

- 1 000 000.00 – 3 000 000.00 manat olan səhm emissiyaları üzrə **2000 manat**, istiqraz emissiyası üzrə **1000 manat**;
- 3 000 000.00 manatdan çox məbləğdə səhm emissiyası üzrə **5000 manat**, istiqraz emissiyası üzrə **3000 manat**;
- yerləşdirilmiş səhmlər üzrə kumulyativ olmaqla rüblük əsasda 5 000 000.00 manat və daha çox məbləğdə ticarət həcmi üzrə **1000 manat**.

1.2. Qeyd edilən mükafat birja üzvünə (üzvlərinə) hər bir emitent üzrə yalnız bir dəfə ödənilsin.

1.3. Qeyd edilən mükafatlar yerləşdirilmiş həcm nəzərə alınmaqla hesablansın.

1.4. Xarici valyutada buraxılmış korporativ istiqrazlar üzrə həcmlər manat ekvivalentində nəzərə alınmaqla hesablansın.

2. Bu əmrin 1-ci bəndində qeyd olunan mükafatlandırma təşəbbüsü 31.12.2021-ci il tarixinədək tətbiq edilsin.
3. "Ümumi işlər qrupu"nun rəhbəri L.Qurbanova müvafiq struktur-bölmələri bu əmrlə tanış etsin.
4. "Ticarət və üzvlük qrupu"nun və "Biznes inkişaf qrupu"nun rəhbərləri İ.Mustafayev və E.Babayev bu əmrin icrası ilə bağlı müvafiq tədbirləri həyata keçirsinlər.
5. Bu əmrin 1-ci bəndindən irəli gələn müvafiq qaydada ödəniş tədbirlərinin həyata keçirilməsi "Maliyyə idarəetmə qrupu"nun rəhbəri D.Babayevaya həvalə edilsin.

**İdarə Heyətinin sədri v.m.i.e.**

**Eldar Abdullayev**